# İmam Baqirin (ə) Tarixi

Nazim Babalı[1]

İslam Araşdırmaları Fakültəsində Tədqiqatçı, Hikmət və Dinlərarası Araşdırma İnstitutu, Əl-Mustafa Beynəlxalq Virtual Universiteti, Qum, İran.

## Abstrakt

İmam Baqir (ə) hicrətin əlli yeddinci ilində Mədinə şəhərində dünyaya gəlmişdir. Atası İmam Zeynül-abidinin (ə) vəfatı vaxtı Həzrətin otuz yeddi yaxud otuz səkkiz yaşı var idi. Adı Məhəmməd künyəsi Əbu Cəfər ləqəbləri Baqir Baqirül-ülum olmuşdur. Anası İmam Həsənin (ə) qızı Ümmü Abdullah olmuşdur. Buna görə də, İmam Baqir (ə) həm ata həm də ana tərəfdən Həzrət Əli (ə) və xanım Zəhranın (s) nəslinə yetişən ilk şəxs olmuşdur. İmam Baqir (ə) hicrətin yüz on dördüncü ilində Mədinə şəhərində vəfat etmiş məşhur Bəqi qəbristanlığında atası və babasının qəbirləri kənarında dəfn olunmuşdur. O Həzrətin İmamət dövrü on doqquz ya da iyirmi il olmuşdur.

Həzrətin imamət dövrü, bəni-Üməyyə xəlifələrinin təzyiqlərinin artdığı, başqa bir tərəfdən müsəlmanlar arasında ixtilaflar, fiqhi və kəlami qiyamların, cərəyanların formalaşdığı bir dövrə təsadüf edir.

**Açar kəlmələr**: İmam Baqir, Tarix, İmamət, Elm, Zöhd

[1]. Email: bbbalabey@gmail.com

## Giriş

İmam Məhəmməd Baqir (ə), İmam Səccadın (ə) yolunu davam etdirmək və alimlər, ziyalılar yetişdirməklə, şiəliyin təfəkkürünün və mədəniyyətinin dərkinin əsaslarını gücləndirməyə başladı. Tarixi nəqllər, həzrətin yetişdirdiyi 466 elmi şəxsiyyətin adını sadalayır.

İmam (ə) elmi baxımdan bənzərsiz şöhrətə malik idi; belə ki, əhli-sünnə və şiə məzhəbinin alimləri onu bu vəsflə tərif edir, onun elmi etibarını qəbul edirlər.

Fiqh, etiqadat və digər İslam elmləri sahəsində şiə və sünni hədisçilərində nəql edilmiş hədislər toplusu, o həzrətin elmi dərəcəsinin göstəricisidir. Bir tərəfdən isə, onun müvəffəqiyyəti, İmam Səccad (ə) tərəfindən təməli qoyulmuş cərəyana borcludur.

İmam Baqirin (ə) elmi və mədəni fəaliyyətinin zirvə nöqtəsinə yetişməsi, o dövrdə şiələrin ehtiyaclı olduğu bir zərurətdir. Çünki, müsəlmanlar arasında müxtəlif fiqhi-hüquqi firqələrin yarandığı və başqa sözlə desək, dini firqəçiliyin yüksəldiyi bir dönəmdə, şiəlik öz mənliyini yaxşıca təyin etməlidi idi. Başqa bir tərəfdən, müxtəlif mədəniyyətlərə, dinlərə sahib olan böyük ölkələrin sərhədlərinin açılması səbəbilə, qeyri-islami təfəkkür tərzinin axını, İmam (ə) və İslam cəmiyyətinin bütün dini-mədəni ziyalılarını, cəmiyyətin təhlükəsizliyini təmin etmək üçün inkar və təsdiq sahəsində işlər görməyə vadar elədi. Belə bir vəziyyətdə İmam Baqir (ə), şiəliyə mənlik, şəxsiyyət vermək və İslam təfəkkürünü, ateizm cərəyanları qarşısında qorumaq üçün, elmi-mədəni bir hərəkatın bünövrəsini qoydu. Bu böyük hərəkatı düzgün dərk etmək və əhəmiyyətinə varmaq üçün, fikri, elmi-mədəni cərəyanlarla tanışlıq qaçılmazdır. İndi isə, bununla tanış oluruq.

## Fiqh, təfsir və hədis yönümlü cərəyanlar

İmam Baqirin (ə) imaməti fiqh, təfsir və hədis yönümlü cərəyanların zirvə nöqtəsinə çatdığı bir dövrə təsadüf edir. Hicrətin 95-

114-cü illərində yaşamış fiqh və hədis elmi sahəsindəki əhli-sünnə şəxsiyyətlərinin tərcümeyi-halını araşdırdıqda, bu sahədə nə qədər çalışıldığı aydınlıqla üzə çıxır. Nümunə olaraq, hədis və fiqh sahəsində fəaliyyət göstərən və bəzilərinin də hakimiyyətə sıx bağlı olduqları İbn Şəhab Zöhri, Məkhul, Qətadə, Hişam ibn Urvə, İbrahim Nəxəi və Rəca ibn Həyatı göstərmək olar. Onların dövlətə bağlı olması, İmamın (ə) bəzi yazılarında onlardan şikayətlənməsinə səbəb olur.

Müsəlmanlar, xüsusilə də fəth edilmiş məmləkətlərin müsəlmanları arasında, şəri qanunilik əldə etməyə əməvilərin ehtiyacı, Peyğəmbərdən sonra xəlifələr tərəfindən hədis nəql edilməyə qadağa qoyulmasına baxmayaraq, onları hədis yaymağa məcbur elədi. Bu səbəbdən, əməvi dönəmində Quran və onun qiraətindən sonra, ən mühüm din elmi hədis sayılırdı. Hədis elmi fiqhi, əxlaqi, tarixi və təfsir sahəsində hədislər toplusuna şamil olurdu ki, ilk dəfə Ömər ibn Əbdül-Əziz rəsmi olaraq, tərtibinə göstəriş verdi. Doğrudur, bundan əvvəl də şifahi şəkildə, nəqllər rəcav tapmışdı. Sözün qısası, hədisin rövnəqli bazarı və xəlifələrə, əməvilərə şəri qanunilik vermə, hədislərdə çoxsaylı bidətlərin, təhriflərin yaranmasına zəmin yaratdı.

Əməvilər tərəfindən müxtəlif bidətlərin, dinin təhrifinin yayılması, ziyalılar tərəfindən minimum etiraza belə səbəb olmadı. Yalnız şiə rəhbərləri, onun başında şiə imamları (ə) idilər ki, müxalifətçilik bayrağını qaldıraraq, həm inkari və həm də təsdiq sahəsində mübarizəyə qalxdılar. Xalqın əksəriyyətinin sükutu, onların dindən xəbərsiz olmalarından qaynaqlanırdı. Dini elmlərlə və hədislə tanışlığı olan az bir dəstə də mərvanilərin xidmətçisinə çevrildilər. Şiə təmayüllülər daha çox İraq alimləri içərisində idi. Onlar bəni-Üməyyə ilə qarşı-qarşıya duraraq, təbii olaraq dövlətə tabe olan hədis və elmi cərəyanın qarşısında dayandılar. Birinci cərəyanın nəticəsi, hədis əhli məzhəbinin yaranması və ikinci cərəyanın nəticəsi şiə məzhəbinin yaranması oldu. bəni-Üməyyə ilə müttəfiq olanlar arasında

Məhəmməd ibn Şəhab Zöhri hamıdan daha məşhur idi. O, Mərvan hakimlərinin fəqihi sayılır və Hişam ibn Əbdül-Məlikin övladlarının təlim-tərbiyəsini öhdəsinə götürmüşdü. O, necə hakimiyyətin quluna çevrilirsə, hətta bacısı "qardaşımın hədisini qəbul etməyin, çünki o, dini dünyaya sataraq, Bəni-Üməyyəyə işləyir" deyirdi.

İbrahim Nəxəi, Əbu Zənad (Mədinənin fəqihi), Muğeyrə ibn Məqsəm və məşhur hədisçi Şöbiyə də bu güzlə baxmaq lazımdır. Bu dünyapərəst cərəyanın Bəni-Mərvan hökumətinin möhkəmlənməsi yolunda etdiyi xidmətlər, onların düşmənlərinin və əməvi müxaliflərinin pislənməsinə və xanidana bağlı olanların kəramətinə dəlalət edən saxta hədislərin yaradılması idi. Xəlifələrə hər formada itaətin vacib olması haqda nəql edilən hədislər, hökumətin ictimai nüfuzunu artırmağa səbəb oldu. Saxta hədislərdən biri də, xəlifələrin Allahın məhzərində hesabat verməsindən azad olmasıdır. İmam Məhəmməd Baqir (ə) bu saxtakarlıqlar, inhiraflar qarşısında dayanaraq, həqiqi İslamı göstərməyi, onun hüququnu, şəriətini və fiqhini bəyan etməyi özünə borc bilirdi.

Bidətçi saray alimləri ilə mübarizə ilə yanaşı, İslam ölkələrində fəaliyyət göstərən yəhudi alimləri və bir sıra üzdə müsəlman olan alimlərlə ilə də mübarizə aparılırdı. Bir sıra zahirən müsəlman olmuş yəhudi alimləri və hələ öz dinində qalan digərləri, İslam cəmiyyətində xalqın bir qrup avam təbəqəsini öz ətrafına yığa bilmişdilər. Onlar əsasən təfsir, keçmiş peyğəmbərlərin həyatının müxtəlif mərhələləri və müsəlmanların mədəniyyəti sahəsində bir sıra saxta hədislər yaratdılar. Bu hədislər "israiliyyat" adı ilə tanınmışdır. Sonralar, Təbəri kimi bir çox əhli-sünnə alimləri, öz təfsir qaynaqlarında bu hədislərə istinad etmişlər.

Təfsir və peyğəmbərlərin həyatı sahəsindən əlavə, kəlam və fiqh sahəsində də onların bidətləri təhlükəli sayılırdı. Bu yəhudi cərəyanı, onun saxta hədisləri və İslamla tanış olmayanları elmi

istiqamətləndirmə, İmam Baqirin (ə) və sonra da İmam Sadiqin (ə) ən ciddi mübarizələrindən sayılırdı.

**Mürciə cərəyanı**

Mürciə hərəkatı, İmam Baqirn (ə) dövründə Həsən Bəsrinin əsasını qoyaraq təbliğ və rəhbərlik etdiyi "Qədəriyyə" dəstəsinin kənarında, Müaviyənin və əməvilərin xilafətinə şəri haqq qazandırmaq üçün nəzəriyyəçiliyə başladı. Bu məsələ təkcə siyasi səthdə deyil, cəmiyyətin digər sahələrini də əhatə edir və İslam maarifi, kəlam elmi sahəsində yeni cərəyan formalaşdırmağa qadir idi. Bu cərəyanın acı nəticələrinə misal olaraq, xalq arasında dini təlimlərə qarşı yaranmış tərəddüdü, şəkki göstərmək olar. Fikri dağınıqlıq, pərakəndəlik və fiqhi, kəlami cərəyanların çoxalması da bu tərəddüddən və təfəkkür dairəsinə hakim kəsilən ümidsizlikdən doğurdu. Bundan əlavə, özünü dinə, dini təfəkkürə və Peyğəmbərin (s) sünnəsinə, əhli-beytinə bağlayan digər müxtəlif siyasi cərəyanlar (Keysaniyyə və Zeydiyyə kimi), və çoxsaylı qiyamlar bu dağınıqlığı və tərəddüdləri bir az da artırırdı. Belə bir şəraitdə İmam Baqir (ə) elə dini mərcəiyyətə yiyələndi ki, hətta əhli-sünnə onu dini mütəfəkkir, alim və rəhbər kimi qəbul etməklə yanaşı, ondan təsirləndilər.

Belə bir şəraitdə dini təfəkkür, dini təlimlər əsasında elmi inqilabın təməlini qoyulması və İmam Səccadın (ə) fikri hərəkatını tamamlanması, İslam təfəkkürünün, mədəniyyətinin öz müstəqil mənliyinin hifz etməsinə və şübhəli, səthi və eləcə də saxtakarlıqlar, bidətlər qarşısında bu müstəqilliyin keşiyində dayanmasına səbəb oldu. Doğrudur, bu məsələ sübuti və inkari sahədə İmamın (ə) fəaliyyətlərinə ehtiyaclı idi. Həzrət isə var gücü ilə bu işi bu iki sahədə həyata keçirirdi.

**A) Sübuti sahədə İmamın (ə) fəaliyyələri**

İmam Baqirin (ə) elmi-mədəni sahəyə daxil olaraq fiqh, hədis və kəlam mədrəsəsi təsis etməsi, İslam aləmində yüzlərlə şagird yetişdirməsi,

İmam Səccad (ə) tərəfindən əsası qoyulan şiə mənliyinin sütunlarını bərkitmək, təkmilləşdirmək və habelə, Peyğəmbərin (s) sünnəsini yaşatmaq, açıqlamaq kimi fəailiyyətləri, İslam təfəkkürünün, mədəniyyətinin qorunub yaşanmasında böyük rol ifa edirdi.

İmam Baqir (ə) fiqh□ hədis□ təfsir və sair İslami elmlər sahəsində seçilmiş şagirdlər yetirmişdir. Onların hər biri böyük elmi şəxsiyyət hesab olunurdu. Məhəmməd ibn Müslim□ Zürarə ibn Əyün□ Əbu Bəsir□ Büreyd ibn Müaviyə Əcli□ Cabir ibn Yezid□ Həmran ibn Əyun□ Hişam ibn Salim kimi dahi şəxsiyyətlər İmam Baqir əleyhissəlamın yetirmələri olmuşlar. İmam Sadiq (ə) buyurardı: “Bizim məktəbi və atamın hədislərini dörd nəfər dirçəltdi. O dörd nəfər Zürarə□ Əbu Bəsir□ Məhəmməd ibn Müslim və Büreyd ibn Müaviyə Əcli olmuşdur. Əgər bunlar olmasaydı□ bir nəfər din təlimatı və Peyğəmbər məktəbindən istifadə edə bilməzdi. Bu neçə nəfər dinin gözətçiləri olmuşdur. Onlar dövrümüzdə yaşayan şiələrimiz arasında bizim məktəblə tanış olan ilk şəxslər olmuş□ Qiyamətdə də hamıdan qabaq bizə qovuşanlar məhz onlar olacaqlar.”

İmam Baqirin (ə) şagirdləri öz dövrlərinin fəqih və hədisçilərinin başbilənləri olmuş□ elmi mübarizə meydanında qeyri–şiə fəqih və qazılarından üstün idilər.

İmam Baqirin (ə) parlaq elmi əsərləri və İslam cəmiyyətinə təhvil verdiyi dəyərli şagirdləri İslam Peyğəmbərinin uzaqgörənliyini çin çıxartdı. Peyğəmbərin (s) uzaqgörənliyini ehtiva edən bu hədisin ravisi (rəvayətçisi) İslamın ilkin çağlarının görkəmli şəxsiyyətlərindən biri olan Cabir ibn Abdullah Ənsaridir. İslam Peyğəmbərinin dostlarından olan və o Həzrətin ailəsinə xüsusi əlaqə ilə yanaşan Cabir deyir: “Bir gün Peyğəmbər (səlləllahu əleyhi və alih) mənə buyurdu: “Məndən sonra mənim nəslimdən olan elə bir şəxsi görəcəksən ki□ onun adı mənim adıma□ özü də mənə oxşayacaq. O□ elm qapılarını camaatın üzünə açacaq.” İslam Peyğəmbəri bunu deyəndə hələ İmam

Baqir (ə) dünyaya gəlməmişdi. Bu hadisədən neçə illər ötdü. Dördüncü İmamın dövrü yetişdi. Bir gün Cabir Mədinənin küçələrinin birindən keçəndə, gözü Həzrət Baqir əleyhissəlama sataşdı. Gördü ki Peyğəmbərin (s) buyurduğu bütün nişanələr onda var. Soruşdu: "Adın nədir?" Həzrət Baqir (ə) buyurdu: "Adım Məhəmməd ibn Əli ibn Hüseyndir." Cabir onun alnından öpüb buyurdu: "Cəddin Peyğəmbər (s) mənim vasitəmlə sənə salam göndərdi." Cabir o gündən etibarən İslam Peyğəmbərinin hörmətini qorumaq və İmam Baqir əleyhissəlamın əzəmətini göstərmək məqsədilə gündə iki dəfə o Həzrətin görüşünə gedərdi. Cabir Peyğəmbər məscidində camaatın arasında oturub (İmam Baqir əleyhissəlamın işlərinə irad tutan bəzi şəxslərin cavabında) Peyğəmbərin (s) uzaqgörənliyini rəvayət edirdi.

Məhəmməd ibn Muslim Riyah ət-Taifi də İraqda ən etimadlı, müvəffəq şiələrdən sayılırdı. O, İmam Baqirdən (ə) minlərlə hədis nəql etmişdir. O, hədis elmi ilə yanaşı, hüquq və mühakimə məsələlərində də səriştəli idi. Sünnilərin böyük fihi imamı Əbu Hənifə və onlarla sünni alimi, İmam Baqirdən dərs almışlar.

**B) İmamın (ə) inkari sahədə fəaliyyətləri**

İmamın yaşadığı dövrdə müxtəlif fiqhi, siyasi, kəlami cərəyanlar baş alıb gedirdi. Bunların hər biri özünü İslam təfəkkürünə mənsub edirdi. İmam, İslam təfəkkürü və davranış qaydasını açıqlamaqla yanaşı, bu azğın (ifrata və təfritə varan) cərəyanlar qarşısında da dayanaraq, xalqın ziyalıları, rəhbərləri üçün fikir aydınlığı yaradırdı.

O, şişirtmə (Qulat) cərəyanı kimi məyusedici bir zamanədə imamlara sığınmış cərəyanlar qarşısında kəskin dayandı. Onlar, sadəlövhlük və hakimlərin kəskin zülmü nəticəsində, şiə imamlarından əxlaqi, insani və dini səciyyəvi xüsusiyyətlərə görə, onlar üçün üluhiyyət (allahlıq) qail olmuşdular. Qeyd etdiyimiz kimi,

İmam (ə) Qədriyyə və Mürciə kimi mövcud şəraitlə razılaşan və insanları hökumətin bütün qərarları ilə razılaşmağa dəvət edən dəstələr qarşısında dayanır və saxta hədisləri, israiliyyatı tanımaq üçün bir sıra prinsipləri tərtib etdi. Həzrət şiə imamlarını sırf olaraq qılınca arxalanan hesab edən radikal qruplara və yalandan məhdəviyyətdən yapışaraq insanları sıxıntıdan qurtarmaq istəyən azğınlara da etiraz edirdi, bütövlükdə onları rədd edirdi. İmam (ə) açıq-aydın yaltaq, dinini dünyalarına satan saray alimləri qarşısında dayanır, eləcə də guşənişinliyi seçən geriçi sufi məsləkləri də tənqid edirdi, danlayırdı.

Deməli, İmam Baqir (ə) elmi-mədəni sahədə ehtiyac duyulduğundan, bu sahədə yorulmaq bilmədən mücahidət etdi; özü də, İslam təfəkkürünü, ideyasını dirçəltmək və şiə mədəniyyətinə mənlik bəxş etmək üçün təqiyyə metoduna, prinsiplərinə arxalanaraq.

## İmam Baqirin (ə) şəxsiyyəti haqda

Ümmətə imamlıq və rəhbərlik üçün lazım olan bütün xüsusiyyətlər, İmam Əbu Cəfər Məhəmməd Baqirdə (ə) cəm olmuşdu.

Bu böyük İmam geniş ruhi, əqli istedad və nəfsani fəzilətlər, yüxsək əxlaqi xüsusiyyətlər sayəsində, cəmiyyətin bütün böyükləri, islahatçıları arasında bənzərsiz bir şəxsiyyətə çevrilmişdi. Bu xüsusiyyət, onun Peyğəmbəri-Əkrəmə (ə) gedib çatan nəsli ilə birlikdə, İmam Baqiri (ə) insanlığın ən ali dərəcəsində bir şəxsiyyətə çevirirdi. İslam peyğəmbərini (s) İslam ümməti çox düşündürür və bu haqda həzrət çox ehtiyatla davranırdı. Peyğəmbəri-Əkrəm heç vaxt razı deyildi ki, İslam ümməti ümmətlər arasında aşağı təbəqədə yerləşsin. Əslində o həzrət istəyirdi ki, Qurani-Kərimin də buyurduğu kimi İslam ümməti izzətə, kəramətə yiyələnsin. Odur ki Peyğəmbəri-Əkrəm (s) xilafət və imamət məsələsinə böyük əhəmiyyət verirdi. O həzrət hər bir dini məsələdən daha çox xilafət və imamət məsələsinə diqqət yetirir, bu haqda müsəlmanlara yol göstərir, lazımi göstərişlər verirdi. Çünki, imamlıq və rəhbərlik

məsələsi, hər bir ümmətin fikri, ictimai və siyasi sahədə inkişafı üçün ən möhkəm sütun sayılır. Peyğəmbəri-Əkrəm (s) bu mühüm məsələnin öhdəçiliyi üçün, öz əhli-beytindən olan məsum imamları seçmiş və bu məsələni onlara aid etmişdir. Hansı ki onlar heç vaxt, heç bir şəraitdə maddi məqsədlər üzrə hərəkət etməyib, daima hər bir davranışında, Allahın itaətini, İslam ümmətinin məsləhətlərini başqa hər bir hədəfdən üstün tutublar.

İmam Baqir (ə) öz davranışında, əxlaqda bütün insani kamalatı özündə əhatə edirdi. O həzrət atası İmam Səccaddan (ə) sonra həqiqətən İslam ümmətinə imamlıq etməyə layiq idi.

Bütün tarix kitablarında bu həzrətin fəzilətlərinə dair yazılan yazılar, böyük bir dənizdən bir damcı su götürməyə bənzəyir. İndi biz isə, tarix kitablarının İmamın əxlaqi xüsusiyyətləri, davranışı haqda yazdıqlarının azacıq bir hissəsinə burada toxunuruq:

**Səbir və dözümlülük**

Dözümlülük İmam Əbu Cəfər Məhəmməd Baqirin (ə) ən bariz xüsusiyyətlərindən biridir. Bütün tarix yazarlar bu haqda yekdil qənaətdədirlər ki, o həzrət heç vaxt ona edilən zülmkarlıqlara qarşı oxşar davranış metodunu seçməyib, əslində o bütün bunları yaxşılıqla cavablandırıb.

**Tarixçilər İmamın səbirinə dair çoxlu nümunələr qeyd etmişlər. O cümlədən:**

1- Əhli kitabdan olan bir şəxs (yəhudi yaxud məsihi) İmam Baqirə (ə) hücum çəkərək o həzrəti təhqir eləyərək, acı dillə həzrətə dedi: sən bəqərsən (ləfz baxımından Baqir sözünə yaxın olan “bəqər” sözü inək mənasını verir).

İmam gülərüzlə belə cavab verdi: “xeyir, mən Baqirəm”.

Əhli kitab şəxs həya etmədən həzrətə xitabən dedi:

“Sən aşpaz qadının oğlusan!”.

İmam (ə) məlahətli bir təbəssümlə, narahat olmadan ona belə buyurdu: “Bu onun peşəsi olub”.

Əhli kitab şəxs yenə azğınlıq və inadkarlığından əl çəkməyərək, həzrətə dedi: “Sən qara, zənci və avara qadının oğlusan”.

İmam Baqir (ə) onun sözlərindən qəzəblənmədən, tam mehribançılıqla ona belə cavab verdi: Əgər sən düz deyirsənsə, Allah o qadını bağışlasın, sən yalan deyirsənsə, Allah səni bağışlasın. Kitab əhli olan şəxs İmam Baqirin (ə) əxlaqına heyran oldu. O, peyğəmbərlərə məxsus belə bir əxlaqı İmam Baqirdə (ə) müşahidə etdikdə, onun vurğununa çevrilərək, elə o məclisdə müsəlman olduğunu və haqq olan əhli-beyt yolunu seçdiyini bildirdi.

İmamın səbiri barəsində demək olar ki, səbir əhli-beytin zati sifətlərindən biri olmuşdur. Onlar, zəmanənin bütün çətinliklərinə dözmüşlər. Onların dözdükləri bəlalar yükünü hətta dağ da daşımağa qadir deyil. Şəhidlər ağası İmam Hüseyn (ə) Kərbəla torpağı üzərində elə bir məşəqqətlə, möhnətlə üzləşdi ki, hətta onu təsəvvür etdikdə belə insanın ağlı başından çıxır. İmam Hüseyn (ə) bu gözəl kəlamı dilində tərənnüm edirdi: İlahi! Sənin qəzana səbir edirəm, çünki səndən başqa məbud yoxdur.

İmam Baqir (ə) də öz məsum babaları kimi, çətinliklərə dözməyi, müsibətlərə səbir etməyi özünə peşə etmişdir.

Məsum imamların, xüsusilə də İmam Baqirin (ə) üzləşdiyi ən çətin narahatçılıqlardan biri də, əhli-beytin danılmaz haqqı olan xilafət məqamının oğurlanması, bundan başqa Peyğəmbərin (s) minbərində o həzrətin əziz ata-babalarına lənət oxumaq məsələsi idi. Amma bütün bunların qarşısında səbir etdi, hətta dilinə bir söz gətirməyə belə imkanı olmadı. Həzrət qəzəbini udaraq, bu zülmkarların işini Qiyamət günü haqq olaraq bəndələri arasında mühakimə edən Allaha tapşırdı.

İmamın (ə) dözdüyü digər müsibətlərdən biri də, şiələrə qarşı edilən təzyiqlər idi. Əməvilərin muzdurları şiələri hətta daşın altında olsalar

belə təqib edir, axtarır, onların hökumət cəlladlarına tapşırırdılar. Belə bir halda İmam Baqir (ə) heç bir hərəkət, fəaliyyət göstərməyə qadir deyildi. Çünki əməvi hakimləri həzrətə güclü nəzarətlər edir, o həzrətin şiələrə dair bütün istəklərinə rədd cavabı verirdilər.

Tarixçilər nümunə olaraq İmamın səbrinə dəlalət edən bu hadisəni qeyd edirlər: İmam Baqirin (ə) bir oğlu var idi ki, həzrət onu çox sevir, ona çox bağlı idi. Bir gün həmin uşaq xəstələnir. İmam Baqirin (ə) yaxınları həzrətin nə qədər bu uşağı istəməsini bilirdilər. Odur ki, həzrətin öz canı, öz sağlamlığı üçün qorxuya düşdülər. Lakin o uşaq öldükdən sonra İmamın aramlaşdığını, səbir etdiyini gördükdə həzrətdən soruşdular: ey Allahın peyğəmbərinin (s) oğlu, sizin bu uşağa sevginiz, onun xəstəliyi zamanı aramsızlığınız o qədər güclü idi ki, biz sizin sağlamğınıza görə qorxuya düşdük. Indi o dünyadan getdikdən sonra, sizin aramlaşdığınızı, səbir etdiyinizi görürük. İmam Baqir (ə) tam aramlıqla, ilahi qəzaya razılıqla dolu bir ürəklə onlara cavab olaraq buyurdu: “biz bəyəndiyimiz şeyləri əldə etmək üçün Allahı çağırırıq, ancaq bizim bəyənmədiklərimiz baş verdikdə, bu işin Allah tərəfindən bəyənildiyini yəqin edirik. Odur ki, Allahın bəyəndiyi, razı olduğu bir işlə müxalifət etmirik”.

İmam Baqir (ə) dünyanın acı hadisələrinin oxları qarşısında, özünü səbir, dözümlülük silahı ilə silahlandırmışdı. O həzrət zəmanənin faciələri, müsibətləri ilə, polad tək iradə ilə, sarsılmaz imanla qarşılaşırdı. İmam Baqir (ə) heç bir narahatçılıq, könülsüzlük olmadan dünyanın müsibətlərinə dözür və bu yolda Allah-taalanın razılığı, əcrindən başqa heç bir hədəfi nəzərdə almırdı.

## İmam Baqirin (ə) kərəmi, səxavəti

Kərəm, əliaçıqlıq Peyğəmbər (s) əhli-beytinin ən seçilmiş xüsusiyyətlərindən olub. Onlar həmişə kasıblara öz səxavət, bəxşiş əllərini bənzərsiz şəkildə uzatmışlar. İmam Məhəmməd Baqir (ə) fitri olaraq xeyirxahlığı, yaxşılığı, insanlara bəxşiş etməyi və onların ürəklərini sevindirməyi sevirdi.

**Ehtiyaclılara hörmət**

O həzrətin yüksək əxlaqi xüsusiyyətlərindən biri də, ehtiyac zillətində olmasınlar, utanmasınlar deyə fəqirlərə hörmət etmək, onlara qiymət vermək idi. Tarixçilərin yazdığına görə, öz ailəsinə, əhli-beytinə tapşırmışdı ki, bir dilənçi onların yanına gələrsə, ona nə isə verdikdə, "ey dilənçi bunu al" deməsinlər; ona desinlər ki: ey Allahın bəndəsi bunu al mübarək olsun. O həzrət eləcə də buyurardı ki: onları ən gözəl adları ilə çağırın.

**Qulları azad etmək**

İmam Baqir (ə) qulların azadlığı, onları qulluq zəncirindən nicat verməyə çox maraqlı idi. O həzrət on bir nəfərdən ibarət olan bir qul ailəsini azad elədi. Eləcə də qeyd ediblər ki, həzrətin ixtiyarında altmış qul var imiş ki, vəfatı zamanı, onun üçdə birini azad elədi.

**Öz əshabına yaxşılıq**

İmam Baqir (ə) dünyada heç nəyi öz iman qardaşlarına yaxşılıq etməkdən daha çox sevmirdi. O həzrət öz dostlarına, əshabına yaxşılıq etməkdən yorulmaz, o həzrətin kəraminə ümid edənlərə xeyirxahlıq etmək fikrində idi. İmam Baqir (ə) öz oğlu İmam Sadiqə (ə) vəsiyyət edir ki, vəfatından sonra əshab və dostlara pensiya versin ki, onlar asudə fikirlə elmi yaymaqla məşğul olsun və ruzi dərdi çəkməsinlər.

**O həzrətin Mədinə fəqirlərinə sədəqə verməsi**

İmam Baqir (ə) Yəsribin fəqirlərinə, dilənçilərinə çox yaxşılıq edirdi. O həzrətin Mədinə yoxsullarına verdiyi sədəqələri saydıqda, bu rəqəm səkkiz min dinarı ötdü.

İmam Baqir (ə) hər cümə günü bir dinar sədəqə verir və buyurardı: Cümə günü sədəqə vermək, başqa günlər verdiyin sədəqədən neçə dəfə çox savaba malikdir.

Tarixçilərin yazdığına görə, əhli-beytin arasında İmam Baqir (ə) ən az gəliri olan və ən çox xərci olan şəxsdir. Süleyman ibn Qərəm

nəql edir: İmam Baqir (ə) bəzən beş yüz dirhəm, altı yüz dirhəm, min dirhəmə qədər bizə bəxşiş edir, qardaşlara və onun kəraminə ümid bəsləyənlərə göstərdiyi xeyirxahlıqdan heç vaxt yorulmaz, inciməzdi.

Həsən ibn Kəsir deyir: İmam Baqirin (ə) yanına gedərək, öz ehtiyacım və əshabın mənə kömək etməməsi haqda şikayətləndim. İmam bu sözləri eşitdikdə çox təsirlənərək buyurdu: ən pis qardaşlar onlardır ki, zəngin olduğun vaxt daima sənə baş çəkir, səninlə ünsiyyət qurur, ancaq, kasıb vaxtında səninlə əlaqəni kəsirlər. Sonra öz qulamına əmr etdi ki, içərisində yeddi yüz dirhəm olan kisəni gətirsin. İmam həmin kisəni o kişiyə verərək buyurdu: bu pulları özün və ailən üçün xərclə, qurtardıqda isə mənə xəbər elə.

İmam Baqir (ə) onun dərsinə gələnlərə həmişə bəxşiş edər, onlara yüz dirhəmdən min dirhəmə qədər pul verərdi. O həzrət onlarla oturub-durmağı çox sevərdi. Misal olaraq Əmr ibn Dinar və Əbdullah ibn Übeydi göstərmək olar ki, İmam Baqir (ə) pul və libas onların evinə göndərək buyurardı: biz ilin əvvəlində bunları sizin üçün hazırlamışıq.

## İmam Baqirin (ə) ibadəti

İmam Əbu Cəfər Məhəmməd Baqir (ə) tarixdə təqvalıların öndəri olmuşdur. O həzrət Allahı necə tanımışdısa, dərk etmişdisə, bu dərk onun bütün simasını bürümüşdü. O həzrət tövbə ilə dolu bir qəlblə Allahın dərgahına gedərdi. İmam Baqir (ə) ibadətdə, itaətdə son dərəcə ixlaslı idi. Onun ibadətinin cilvələrinə nümunə olaraq aşağıdakıları göstərmək olar:

### A) Namaz qılarkən xuşu

O həzrət haqda demişlər ki, namaza dayanarkən mübarək üzünün rəngi saralırmış.  Bu heç də təəccüblü deyil, çünki, o həzrət Allah-taalanın əzəmətini dərk etmişdi. O Allah ki, bütün varlıq aləmini vücuda gətirmişdir. Elə isə o həzrət də tövbəkar təqvalılar kimi, Allahına ibadət edirdi.

**B) Çoxlu namaz qılmaq**

İmam Baqir (ə) çox namaz qılardı. Hətta o həzrətin sutkada yüz əlli rükət namaz qılması deyilib. Ümmətin mərcəiyyətilə bağlı və elmi məsələlər o həzrəti namazdan yayındırmırdı. Çünki namaz, namazqılanla Allah-taala arasında möhkəm bir ip olaraq, İmam Baqir (ə) yanında dünyanın ən sevimlisi idi.

**B) Səcdə halında İmam Baqirin (ə) duası**

Söz yox ki bəndənin Allaha ən yaxın haləti, səcdə halətidir. Odur ki, İmam Baqirin (ə) daima səcdə halında öz qəlbini Allah-taalaya yönəltdiyini görürük. O hər şeydən qırılaraq, öz rəbbinə sarılır, tam ixlasla onunla minacat edirdi. Odur ki, dua kitablarında İmam Baqirdən (ə) səcdə halında çoxlu dualar qeyd olunduğunu görürük. Bu dualarla tanış olmaq üçün "Furui Kafi" kitabının üçüncü cildi, 322-ci səhifəyə müraciət etmək olar.

**İmam Baqirin (ə) Allah-taala ilə minacatı**

İmam Baqir (ə) gecə qaranlığında öz Allahı ilə nəcva edirdi, pıçıldayırdı. O həzrət öz minacatında belə deyirdi: mənim Allahım, mənə göstəriş verdin, mən isə sənin göstərişinə əməl etmədim. Məni bəzi işləri yerinə yetirməkdən çəkindirdin, nəhy etdin, mən isə, o işləri yerinə yetirdim. İndi isə bu sənin bəndəndir ki, qarşında dayanıb.

**Allah-taalanı yad etmək**

İmam Baqir (ə) daima Allah-taalanın yadı, zikri halında idi. O həzrətin dili çox vaxt Allah-taalanı zikr, təsbih, təqdis edirdi. Yol gedərkən də zikr deyirdi. O həzrət hətta camaatla danışarkən belə, Allahı unutmurdu. İmam Baqir (ə), öz övladlarını yığaraq saxlayırdı ki, günəş çıxana qədər Allah-taalanın zikri ilə məşğul olsunlar. O həzrət öz övladlarına, əhli-beytinə Quran oxumağı tapşırır və Quran oxumağı bacarmayan uşaqlara isə, Allahı zikr etməyi tapşırırdı.

**Nəticə**

İmam Baqir (ə) dünyanın bütün bər-bəzəkləri, zahiri əzəməti qarşısında zöhd yolunu seçərək, dünya zinətlərindən üz döndərdi. O həzrət öz evində heç vaxt dəmdəbəli əşyalar yerləşdirmədi. O həzrətin məclisində yerə həsir sərilmişdi.

İmam Baqir (ə) dünya həyatına dərin, bəsirətli bir baxışla baxırdı. O həzrət dünya həyatının bütün sahələrinə uzaqgörənliklə, ziyalılıqla nəzər edir və elə bu cəhətdən də, bütün dünya ləzzətlərindənsə, zöhd yolunu seçmiş, öz aciz ürəyini Allah-taalaya tərəf yönləndirmişdi.

Cabir ibn Yəzid Cöfidən rəvayət edilib ki: İmam Məhəmməd Baqir (ə) bir gün mənə buyurdu: "Ey Cabir, mən çox qəmli və nigaranam.

Cabir üzünü o həzrətə tutaraq dedi: sizin nigarançılığınızın, qəminizin səbəbi nədir?

**İmam (ə) Cabirin cavabında belə buyurdu:**

... Ey Cabir, dünya nədir, onun nə kimi dəyəri var, onun sonu hara çatacaq? Məgər dünyanın sonu mindiyin minikdən, geydiyin libasdan və əldə etdiyin qadından başqa bir şeydir?!

İmam Baqirin (ə) dünyaya etinasızlığı, zöhdü, Allah-taalaya üz gətirməsi və insanları dünyaya aldanmaqdan, günaha düşməkdən çəkindirməsi haqda çoxsaylı nəqllər var. Burada biz İmam Baqirin (ə) parlaq şəxsiyyəti haqda olan sözümüzü sona yetiririk.

## Ədəbiyyat

Qurani-kərim

Nəhcül-bəlağə

Əqidə prinsipləri, Misbah Yəzdi (əsas qaynaq)

Amoli, Cavadi, Təsnim, Qum, 1396

Təbatəbayi, Məhəmmədhüseyn, Qum, əl-Mizan, 1389

Qürbül-isnad, Abdullah ibn Cəfər Himyəri Qummi, tədqiq: Alül-beyt müəssisəsi, Qum, Alül-beyt müəssisəsi, 1413 hicri-qəməri, birinci çap.

Əl-Kafi, Məhəmməd ibnYəqub Kuleyni Razi, tədqiq: Əli Əkbər Qəffari, Beyrut, Darüs-səb və Darüt-təarüf, 1401 hicri-qəməri, dördüncü çap.

"Əl-Burhan fi-ulumil-Quran", Beyrut, 1998

Biharül-ənvar, Məhəmmədbaqir ibn Məhəmmədtəqi Məclisi (Əllamə Məclisi), Beyrut, Vəfa müəssisəsi, 1403 hicri-qəməri, ikinci çap